Azərbaycan, № 22.- S.13.

# Azərbaycan gəncliyi dövlətimizin sədaqətli əsgəridir

**Böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olduğu bütün zamanlarda gəncləri cəmiyyətin ən aparıcı qüvvəsi kimi dəyərləndirmiş, onların hərtərəfli formalaşmaları üçün bütün vasitələrdən istifadə olunmasını təmin etmişdir.**

Öz növbəsində gənclik Ulu Öndərin inamını, etimadını, etibarını həmişə doğrultmuşdur. Azərbaycanın ən ağır vaxtlarında gənclər böyük tarixi şəxsiyyətin amalının mücahidi olmuşlar. Ordu cəmiyyətin bir hissəsidir, əksəriyyəti isə gənclərdir. Onlar 1994-cü ilin yanvarında Horadiz əməliyyatında da Ulu Öndərin hücum əmrini qələbə ilə tamamlamışdılar.

Azərbaycanın dövlət müstəqilliyinin ilk vaxtlarında meydana çıxan siyasi gərginlikləri xalqın israrlı tələbi ilə hakimiyyətə qayıdan böyük tarixi şəxsiyyət Heydər Əliyev aradan qaldırdı. Suveren dövlətçiliyimizin daha da möhkəmləndirilməsi üçün Ulu Öndər gənclərin potensialını dövlətçiliyin inkişafına yönəltdi, gənclər siyasəti dövlət üçün prioritet oldu. 1996-cı il fevralın 2-də Azərbaycan gənclərinin Birinci Forumu keçirildi. Ulu Öndər Heydər Əliyev gənclərin vəzifələrini müəyyənləşdirdi və çıxışında dedi ki, "Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır".

Ulu Öndər Heydər Əliyev 1997-ci ildə fevralın 2-sinin Azərbaycan Gəncləri Günü elan edilməsi haqqında sərəncam imzaladı. O vaxtdan üzü bu yana ölkəmizdə Gənclər Günü təntənəli şəkildə qeyd edilir. Gənclər dövlətimizin istər siyasi nüfuzunun yüksəlməsində, istər iqtisadi gücünün artırılmasında, istərsə də xalqımızın ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin dinamik inkişafında fədakarlıqlar göstərirlər. Azərbaycan Ordusu Ulu Öndərin tövsiyələrini, tapşırıqlarını böyük məsuliyyətlə yerinə yetirir.

Azərbaycanda gəncliyə, gənclərə münasibət dünyəvi mahiyyət daşıyır. Gənclər sosial həyatın bütün sahələrində işləyir, təhsil alır. Onların fəaliyyətini eyni məcrada - eyni dövlət təsisatında birləşdirməyi, əlaqələndirməyi zəruri hesab edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyi yaradıldı. Yenilik fəaliyyətlərin koordinasiyasını da təmin etdi, bu sahədə səmərəliliyi artırdı. Bu həm də dövlət siyasətinin tərkib hissələrindən biri oldu. Sonralar gənclər siyasəti istiqamətində həyata keçirilən bütün tədbirlər, imzalanan sənədlər respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün səmərəli şərait yaratdı, gənclər siyasətinin prinsip və istiqamətləri, təşkilati-hüquqi əsasları müəyyən edildi.

Ulu Öndər Heydər Əliyev hələ ötən əsrin 70-80-ci illərində gənclərin keçmiş SSRİ-nin nüfuzlu ali təhsil ocaqlarında təhsil almalarını sistemləşdirə bilmişdi. Müstəqil Azərbaycanda da bu siyasət uğurla davam etdirildi. Artıq 2003-cü ildə dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində 160-a qədər ixtisas üzrə 3 min nəfərdən artıq azərbaycanlı gənc təhsil alırdı. İstedadlı gənclərin təhsilə marağını daha da artırmaq və dəstəkləmək üçün ən yüksək bal toplamış abituriyentlərə "Prezident təqaüdü" verilməsi dahi şəxsiyyətin təhsilə diqqətinin ifadəsi idi.



Heydər Əliyevin 1999-cu il iyulun 29-da imzaladığı "Dövlət gənclər siyasəti haqqında" fərman gənclərin inkişafı üçün daha münbit şərait yaratdı. Fərmanla dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edildi, Gənclər və İdman Nazirliyinin nəzdində gənclərin problemləri üzrə elmi araşdırmalar mərkəzi yaradıldı.

Böyük tarixi şəxsiyyətin gənclər siyasəti hazırda uğurla davam etdirilir. Azərbaycan gəncliyi dövlətimizin sədaqətli əsgəridir. Onlar dövlətçiliyimizin əbədiliyinin təminatçılarıdırlar.

"Qara qızıl"ın insan kapitalına çevrilməsi strategiyasının icrası çərçivəsində gənclərin qabaqcıl xarici təhsil proqramlarına cəlb edilməsi təşkil olunmuşdur. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın, habelə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın icrası nəticəsində 5 mindən artıq Azərbaycan gənci dünyanın nüfuzlu ali məktəblərində təhsil alıb. Dövlətin dəstəyi sayəsində gənclərin dünyanın 32 ölkəsinin 370-dən çox ən nüfuzlu ali təhsil müəssisəsində təhsil almaları məqsədilə 200 milyon manat vəsait xərclənib.

Hazırda "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" icra olunur. Proqram çərçivəsində hər il 400 nəfərədək olmaqla, ümumilikdə 2000 nəfərədək Azərbaycan vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində təhsil alması nəzərdə tutulub. Ötən 2 il ərzində 146 bakalavriat, 571 magistratura səviyyəsində olmaqla, 717 nəfər tələbə təqaüd almaq hüququ qazanıb. 2023-2024-cü tədris ilində proqram çərçivəsində bakalavriat səviyyəsi üzrə 64, magistratura səviyyəsi üzrə 317 nəfər olmaqla, ümumilikdə 381 nəfər xaricdə təhsil almaq hüququ qazanıb.

Azərbaycanda gənclər siyasəti bütün parametrləri ilə dövlət siyasətinin tərkib hissəsinə çevrilib. Bu da özlüyündə gənclərin siyasi proseslərdə fəal iştirakını təmin edir. 2011-ci il dekabrın 19-da Gənclər Fondu yaradılıb. Respublikanın 55 şəhər və rayonunda Gənclərin İnkişaf və Karyera Mərkəzi (GİKM) fəaliyyət göstərir.

Ölkəmizdə gənclərin fərdi və peşəkar inkişafı naminə elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlanıb həyata keçirilir. Bütövlükdə, Azərbaycanda gəncliyin yüksəlişi üçün Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət böyük sədaqətlə davam etdirilir.

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***